# I Avropa Oyunları müasir Azərbaycanı dünyaya təqdim edəcək

Müasir dövrdə hər bir ölkəni dünya üçün əhəmiyyətli edən meyarlardan biri məhz beynəlxalq imicdir. Bu kontekstdən çıxış edən beynəlxalq təşkilatlar da hansısa ölkədə öz tədbirlərini keçirərkən onun imkanları və resursları ilə yanaşı, qlobal miqyasda mövqelərini də nəzərə alırlar.

Avropa Olimpiya Komitəsinin 2012-ci il dekabrın 8-də Romada keçirilmiş 41-ci Baş Assambleyasında ilk Avropa Oyunlarının 2015-ci ildə Azərbaycanda təşkili haqqında böyük səs çoxluğu ilə qərar qəbul edilmişdir. Qərarın qəbul edilməsində bir çox amil öz rolunu oynayıb. Ölkəmizin artan beynəlxalq nüfuzu, Azərbaycanın idman ölkəsi kimi tanınması, sosial-iqtisadi uğurları, infrastrukturunun müasir tələblər səviyyəsində qurulması və sair bu kimi nailiyyətlər dünyanın diqqətini çəkən məsələlərdir. Həmçinin bu tədbirin baş tutması üçün ölkəmizdə əvvəlcədən möhkəm baza yaradılıb. Prezident İlham Əliyevin Milli Olimpiya Komitəsinə rəhbərliyi müddətində respublikada nəhəng idman infrastrukturu yaradılmış, bu proses təkcə paytaxtımızı deyil, bütün regionları əhatə etmişdir.

Son on il ərzində Azərbaycanda 300-ə yaxın beynəlxalq səviyyəli idman tədbiri yüksək səviyyədə keçirilmişdir. Bu onu göstərir ki, ölkəmiz Olimpiya oyunları kimi mötəbər idman tədbirinə yüksək səviyyədə ev sahibliyi edə bilər. Azərbaycanda müasir idman infrastrukturunun yaradılması və onun çoxsaylı tədbirlərinə ev sahibliyi etməklə yanaşı, Yay Olimpiya Oyunlarının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi üçün Bakının namizədliyinin irəli sürülməsi, dünya idman və Olimpiya aləminin Azərbaycana olan marağını daha da artırıb. Olimpiya oyunlarına ev sahibliyi etmək hər bir ölkənin arzusudur. Təsadüfi deyil ki, ev sahibliyi uğrunda çox ciddi mübarizə gedir. Ona görə hər bir Olimpiya oyunlarına ev sahibliyi edəcək ölkənin adı xeyli əvvəldən məlum olur. Qeyd edək ki, dünyada gedən qlobal inteqrasiya proseslərinin sürətləndirilməsindəki rolu, irqindən, dinindən asılı olmayaraq müxtəlif millətlərin nümayəndələrini bir araya toplayaraq onların ədalətli oyun prinsipləri əsasında idman mübarizəsinə qoşulmasını təmin etməsi ilə seçilən Olimpiya oyunları beynəlxalq aləmin ən möhtəşəm və mötəbər bir tədbiridir. Bu tədbirdən heç bir dövlət kənarda qalmaq istəmir, Olimpiya oyunlarında layiqincə təmsil olunmağa çalışır. Olimpiya oyunlarında göstərilən nəticə yalnız dövlətin idman həyatının deyil, onun iqtisadi potensialının, ictimai, sosial-mədəni həyatının göstəricisidir.

Ümumiyyətlə, təkcə Olimpiya oyunlarına deyil, beynəlxalq səviyyəli istənilən idman yarışlarına ev sahibliyi etmək üçün ölkələr arasında ciddi rəqabət mövcuddur.

Azərbaycan ölkəmizdə möhtəşəm idman yarışlarına ev sahibliyi etməklə yanaşı, həm də xarici ölkələrdə idmanda böyük uğurlar qazanmışdır. Ölkə idmançıları 2000-ci ildə Sidney Yay Olimpiya Oyunlarında ilk böyük uğur - 2 qızıl və 1 bürünc, 2004-cü ildə Afinada 1-i qızıl olmaqla 5, 2008-ci ildə Pekində 1-i qızıl olmaqla 7, 2012-ci ildə Londonda 2-si qızıl, 2-si gümüş və 6-sı bürünc olmaqla 10 medal əldə etmişlər. Nəticələrdən də göründüyü kimi, həm də bu sahədə uğur yüksələn xətlə inkişaf etmişdir.

Prezident İlham Əliyev Avropa Olimpiya Komitəsinin 2015-ci ildə birinci Avropa Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarı münasibətilə Azərbaycan xalqını təbrik edib. AOK-un qərarını tarixi hadisə adlandıran dövlət başçısı bunu ölkəmizin böyük uğuru kimi dəyərləndirib. Təbrikində AOK-un bu qərarının qəbul edilməsində əsas səbəb olan amillərə toxunan Prezident İlham Əliyev ölkəmizin bu oyunları yüksək səviyyədə keçirəcəyini bildirib.

I Avropa Oyunları Azərbaycanın gələcəkdə də mötəbər və daha böyük idman yarışlarına ev sahibliyi etmək imkanlarını təsdiq edəcək. Belə ki, Avropa Oyunlarının keçirilməsində əldə edəcəyimiz təcrübə gələcəkdə digər mühüm yarışlara ev sahibliyi etməyimizə şərait yaradacaq və təcrübəmizi artıracaq. Ən əsası, Azərbaycanın Yay Olimpiya Oyunlarına təşkilatçılıq etmək şansları yüksələcək. Məlum olduğu kimi, Yay Olimpiya Oyunlarının Azərbaycanda keçirilməsi üçün iki dəfə Bakının namizədliyi irəli sürülüb. Bu mənada I Avropa Oyunlarının Azərbaycana həvalə olunması gələcəkdə Yay Olimpiya Oyunlarının da Bakıda təşkili üçün gözəl zəmin yaradır. I Avropa Oyunlarından, o cümlədən Azərbaycanın 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsindən sonra hər iki mötəbər idman tədbiri 2024-cü ildə Yay Olimpiya Oyunlarının Azərbaycanda keçirilməsi barədə ölkəmizin verdiyi sifarişin qalib gəlməsi üçün tramplin olacaq.

Yay Olimpiya Oyunları üçün 6-7 il vaxt verilsə də, Azərbaycanın Avropa Oyunlarına hazırlıq üçün cəmi iki il vaxtı vardı. Bundan başqa, dünyada Yay Olimpiya Oyunlarının keçirilməsində artıq böyük təcrübə mövcuddur. I Avropa Oyunları üçün isə heç bir təlimat və təcrübə yoxdur. Belə olan halda bütün məsuliyyət, təşkilati məsələlərin yoluna qoyulması Azərbaycanın üzərinə düşdü. Beləliklə, Avropa Oyunlarının keçirilməsi ilə bağlı standartları Azərbaycan ortaya qoyur. İnanırıq ki, növbəti belə yarışlarda Azərbaycanın nümunəsi əsas götürüləcək.

Bundan sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2013-cü il yanvarın 17-də ilk Avropa Oyunlarının Təşkilat Komitəsi yaradılmış və Heydər Əliyev Fondunun prezidenti, Milli Gimnastika Federasiyasının prezidenti, millət vəkili Mehriban Əliyeva təşkilata sədr seçilmişdir.

Bildiyimiz kimi, ötən zaman ərzində Avropa Oyunları Təşkilat Komitəsinin iclasları keçirilib, iclaslar zamanı bu beynəlxalq idman müsabiqəsinə hazırlıq məsələləri kompleks surətdə müzakirə predmetinə çevrilib. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın sədrlik etdiyi Komitənin iclasları zamanı müzakirə edilən məsələlər və onların uğurlu həlli deməyə əsas verir ki, Avropa Oyunlarının keçirilməsi istiqamətində strateji prioritetlər məlumdur və qarşıdakı vəzifələr uğurla yerinə yetirilir.

Dünyanın diqqətinin Azərbaycana yönəlməsi ölkəyə iqtisadi dividendlər də gətirəcək. İlk növbədə bu, Azərbaycana turistlərin marağını xeyli artıracaq və hətta Oyunlardan sonrakı dövrdə də uzun zaman ölkə iqtisadiyyatının çiçəklənməsinə xidmət edəcək.

Siyasi məqsədlərə gəlincə, deyərdim ki, Ermənistan tərəfindən təcavüzə məruz qalmış, torpaqlarının 20 faizi işğal altında olan, XX əsrin ən böyük cinayətlərindən biri olan Xocalı Soyqırımı kimi faciə ilə üzləşmiş, 1 milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycan üçün olduqca böyük fürsətdir. Bu da bizim üçün tariximiz, üzləşdiyimiz faciələr, mədəniyyətimizlə bağlı dünyanın informasiya məkanına yeni çıxış imkanıdır. Azərbaycan bir daha dünyaya sübut edəcək ki, tolerant, demokratik yolla inkişaf edən bir dövlətdir.

Hər ötən gün isə bizi Bakıda keçiriləcək birinci qitə yarışmasına yaxınlaşdırır, xalqımız, eləcə də idman ictimaiyyəti bu möhtəşəm tədbiri səbirsizliklə gözləyir.

Müstəqil respublikamızda ilk dəfə keçiriləcək ilk Avropa Oyunları Avropa idman hərəkatında yeni dövrün başlanğıcı, Azərbaycan isə bu tarixin ilk səhifəsini yazan ölkə olacaqdır.

**Nəriman ƏLİYEV,**
**millət vəkili.**






